# *GÖRKƏMLİ ŞƏXSLƏR MƏMMƏD ARAZ HAQQINDA*

Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir.

***

Xalq şairi Məmməd Araz millətimizin mənəvi təkamülündə, gənclərimizin estetik tərbiyəsi yolunda yorulmadan çalışaraq qədim və zəngin ənənələrə malik milli poeziyamıza gözəl töhfələr vermişdir. Şairin dərin fəlsəfi məzmunlu lirikası çağdaş Azərbaycan poeziyasını daha da zənginləşdirmiş, Məmməd Araz istedadının, təfəkkürünün bəhrələri olan yüzlərlə şeir milyonların qəlbinə yol taparaq əbədi məskən salmışdır. Təkcə rəsmi təltifləri – xalq şairi, əməkdar incəsənət xadimi fəxri adları, Dövlət mükafatı deyil, bənzərsiz sənətindəki millilik, xəlqilik, ənənəyə sədaqət və novatorluq ona xalq məhəbbəti qazandırmışdır.

***Heydər Əliyev***
***Ümummilli lider***

Vətənpərvərlik duyğuları ilə zəngin Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü vətən təbiətinin gözəlliklərindən, böyük tarixi keçmişimizdən və milli ədəbi fikrin tükənməz xəzinəsindən almışdır. Ana dilinin bütün incəliklərini özündə toplamış bu poetik irs gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Xalq şairi Məmməd Araz məsuliyyətli ömür yolu ilə, yarım əsrə yaxın davam edən böyük sənəti ilə həmişə Vətən səngərində mübariz keşikdə dayanmışdır. XX əsr boyu fərqli, ideoloji sistemlərdə yaşayıb-yaratmasına baxmayaraq, xalq şairi Məmməd Araz ədəbiyyatda və ictimai həyatda həmişə azərbaycançılıq mövqeyinin böyük müdafiəçisi olmuşdur.

**İsa Həbibbəyli**
**AMEA-nın vitse-prezidenti,**
**Milli Məclisin deputatı,**
**akademik**

Məmməd Araz bütün varlığı ilə ana dilinin təbii axarına, folklora, ata-baba müdrikliyinin qaynaqlarına bağlı olan bir sənətkardır. Onun şeir bulağı ictimai yığıncaqların , müxtəlif miqyaslı ədəbi məclislərin xitabət kürsülərində, kitabların

səhifələrində, sevgililərin məhəbbət məktublarında, məktəb uşaqlarının şirin dillərində çağlayacaqdır.

***Bəkir Nəbiyev***
***ədəbiyyatşünas, tənqidçi***

Məmməd Araz zəngin məzmunlu, güclü təfəkkürə malik, daim arayan, axtaran, narahatlıq xoşbəxtliyinə malik şairlərimizdəndir...Alim təfəkkürlü bir yaradıcıdır.

***Qulu Xəlilov***
***ədəbiyyatşünas***

Poeziyada yeni təbii iqlimin – çağdaş ekoloji təfəkkürün ilk təməl daşlarını qoyanlardan biri Məmməd Araz oldu.

***Yaşar Qarayev***
***ədəbiyyatşünas, tənqidçi***

Məmməd Arazın bədii dili bütün əzələləri ilə müasirdir. Onun dili ənənə ilə novatorluğun, bədiiliklə əbədiliyin, əbədiliklə dialektçiliyin və xəlqiliklə qrammatikliyin harmonik rabitəsinə ən parlaq nümunələrdən biridir.

***Tofiq Hacıyev***
***türkoloq, alim***

Dilin əlvanlığı, şirinliyi, oynaqlığından, poetik müşahidələrin dərinliyindən və itiliyindən, bəzən gümrah, bəzən ağrılı-acılı düşüncələrin, bəzən fərəhli, bəzən küskün hisslərin vəhdətindən yaranmış Məmməd Araz poeziyasının məhvəri vətən eşqi, vətəndaşlıq amalı, dünya haqqında-kürreyi ərzimiz haqqında həm nikbin, həm də nigaran qənaətlərdir.

***Anar***
***xalq yazıçısı***

Məmməd Araz coğrafiyanı yaxşı bildiyindən ancaq sərvdən, çinardan, palıddan, aslandan, pələngdən və s. deyil, həm də geomorfoloji proseslərdən söhbət açır və oxucuya o prosesin əmələ gəlməsini, inkişafını çox düzgün şərh edir və həm də şeirlə çatdırır.

***Budaq Budaqov***
***akademik, alim***

Məmməd Arazın sevgisi qədər nifrəti də dərin və barışmazdır. O, nifrət obyektinə çox qəzəblidir. Ona görə də şair bu hədəfi ən kədərli və ən tutarlı obrazlarla döyməyi, lənətləməyi bacarır. Bu cəhətdən “Məndən ötdü qardaşıma dəydi” şeiri vahid Azərbaycanı xanlıqlara bölən, bizi parçalayan xanlara nifrət və qəzəb nəğməsidir.

***Bəxtiyar Vahabzadə***
***xalq şairi***

Məmməd Araz poeziyasında İnsan fenomen varlıq kimi tərənnümünü tapır, o, hansı peşədə, sənətdə olursa xalqına xidmət etməyə borcludur.

***Nizami Xudiyev***
***professor***

Məmməd Araz ölkənin gəzdiyi, gördüyü hər qarışının tarixini, etimologiyasını öyrənir, nağıl və rəvayətləri yazıya alır, onu bugünümüzlə əlaqələndirməyə çalışırdı. Aparılmış tədqiqatlar nəticəsində məlum olur ki, şairin eşitdiyi nağıl və əfsanələri məqalələrinin leytmotivinə çevirməsində məqsədi bu ibrətamiz əhvalatların ilk növbədə yaddaşlara köçürülməsinə vasitəçi olmaqdır. Digər tərəfdən şair hər bir əhvalatın, nağılın, əfsanənin həmin yerin toponomikasının, etnoqrafiyasının, ərazidə yaşayan toplumun genetik xüsusiyyətlərinin öyrənilməsində çox böyük əvəzsiz mənbə olmasını dərk edirdi.

***Nizami Muradoğlu***
***araşdırmaçı***

Məmməd Araz öz halal ilhamının ilkini, əzəlini Naxçıvandan, Şahbuzdan, Nursdan, Batabatdan, Zor bulaqdan, ata yurdundan, anasının şairənə dünyasından, atası İnfil kişinin nəfəsindən və taleyindən almışdı. Halal ilham həmişə dediyini deyir, təmiz, pak, saf bir dünyası var halal ilhamın. Məmməd Araz ilhamı kimi!

***Zəlimxan Yaqub***
***Xalq şairi***

Məmməd Araz haqqında yazanlar onun fəth etdiyi zirvənin kökünü həmişə ilham və istedadla bağlayırlar. Bu, təbii ki, belədir. Amma bir məsələ də var. Adətən bu sözləri bütün şairlər haqqında demək mümkündür. Çünki şairliyin mayası, əslində, elə ilhamdan, istedaddan tutulur. Şairlik Allah vergisidir. Məmməd Araz hər kəsdən seçilirdi. Dəfələrlə bu fikri təkrarlamaqdan bəlkə də mənəvi rahatlıq tapıram ki, böyük şairimiz bütün bu qatmaqarışıq səslərlə dolu aləmdən, elə öz həmkarları arasından bir ox kimi sıyrılaraq elə ucalığın yaxası ilə addımlayırdı ki, o zirvədə biz ancaq onu görürdük.

***Flora Xəlilzadə***
***əməkdar jurnalist***